

*Rafiq MUSA*

## TƏQDİMAT

Hər il olduğu kimi,
Baxmayıb qeylü-qala,
Məclis əhli yığışdı,
Təmtəraqlı bir zala.

Bu tədbir ağlamalı,
Bir az da gülməlidi.
Burda ağız deyəni,
Qulaq eşitməlidi.

Sanki hər kəs bənd idi,
"Nünsifdən" gələn heyə.
Qiymət verilməliydi,
"Böyük" Şanapipiyə.

Zaldakılar çatdılar,
Həyəcanlı anına.
Münsiflər söz verdilər,
Şanapipik xanıma.

Həyəcanlı bir səslə,
Oxudu Şanapipik.
Ağız büzən olsa da,
Zalda çalındı "çəpik".

"Şef" ə xoş gəlsin deyə,
Kimsə "işi" əymədi.
Şanapipik xanımın,
Xatirinə dəymədi.

Cır idi quşun səsi,
Kimsə üzə vurmadı.
Hər kəs bilirdi, tədbir,
Quramadı, qurmadı.

Öküz dedi: - Çəkici
Bir nöqtəyə vuran var.
Bu quş o quşdan deyil,
Arxasında duran var.

Camış dedi: - Bu quşun
Pipiyi çox gözəldi.
Bu pipikdən qan damır,
Özəlləşib, özəldi.

Quşlar, heyvanlar bir-bir,
Pipikdən söhbət saldı.
Şanapipiyin səsi,
Sanki kölgədə qaldı.

Leylək dedi: - Əzizdi
Şanapipiyin adı.
Onun yaradıcılığı,
Həllini tapmalıdı.

Gözlərinə bir baxın,
Hər quşda bundan olmaz.
Nə olsun səsi belə,
Quyruğuna söz olmaz.

Bütün zal alqışladı,
Leyləyin bu sözünü.
Şanapipik az qala,
Tanımırdı özünü.

Münsiflər alqış dedi,
Bu quşun camalına.
Onu layiq gördülər,
"Tərəqqi" medalına.

Bülbül dözə bilmədi,
Səsini çəkdi zilə .
Ürəyi parçalandı ,
Göz yaşı döndü selə .

Əhli münsif "anladı" ,
Bülbülün bu halını .
Amma "yuyan" olmadı,
Bülbülün babalını.

Bülbül "yaxa cırsa" da,
Tədbirin çatdı sonu.
"Tənəzzül" medalına,
Layiq gördülər onu.

## MÜDİRİN HƏYATI

İt tayadan düşməmiş,
Müdir işə tələsdi.
İş yerinə çatanda,
Əli, ayağı əsdi.

Hanı gözətçi Köpək?
"Post"unu atıb gedib.
Bu Köpək itin oğlu,
Yenə da gözdən itib.

Elə bil, it sürüsü,
Yolunu burdan salıb.
Darvazanın qıfılı,
Bəs niyə açıq qalıb?

Darvazaya dırmaşan,
Pişik yaman kökəlib.
Bura onun iş yeri,
Yoxsa Keçi səhv gəlib.

Bu girişin qapısı,
Görəsən, niyə dardı?
Nə qapı o qapıdı,
Nə divar o divardı.

Elə bil ki, üstünə,
Daş gəlir, divar gəlir.
Geniş olan bu otaq,
Nədən ona dar gəlir?

Qaş-qabaqlı qara Seyf,
Divara söykənibdi.
Seyf də bilir, müdirin,
Başına nə gəlibdi.

Daha iş-işdən keçib,
Olsa da böyük eyib.
Saqqal oynadan Keçi,
Dərdini Seyfə deyib.

Pəncərəyə qoyulan,
Güllərdi, tikanlar.
Hanı işi düşənlər,
Növbədə dayananlar?

Tülkü çıxıb aradan,
O dəyməyir gözünə.
O, həmsöhbət bilərdi,
Lələsini özünə.

Hara gedib Cücələr?
Hinduşka gözə dəymir.
Üç dəfə töhmət alan,
Zürafə boyun əymir.

Hanı pay gətirənlər,
Boynubüküklər hanı?
Ela bil ki, pozulub,
Kabinetin sahmanı.

Sanki hər şey dəyişib,
Elə bil, təmir gedir.
Çoxdur işə gecikən,
Sağsağan gözə dəymir.

Quzu büzüşüb yaman,
Ona qağa deyərdi.
O Keçi qağasıyla,
Həmişə öyünərdi.

Keçinin halı yaman,
Dərd onu küncə qoyur.
Pipiyindən qan daman,
Xoruz ona göz qoyur.

Çöldə qalıb çil Fərə,
Yəqin sığal istəmir.
Toyuq büzüşüb yaman,
Ondan çıxmır səs-səmir.

Rüşvət gətirən Qarğa,
Harda ilişib qalıb?
Bəlkə, qoz axtaranda,
Üstünü Quzğun alıb.

Aranı qarışdıran,
Boz Sərçə də görünmür.
Öz qınında dincəlir,
Tısbağalar sürünmür.

Nə biləydim, "zavxoz"un
Yüz sifəti, üzü var.
Ona çox demişdilər,
Sincabdan "zavxoz" olar?

Gədələrdən bəy olmaz,
Ağıl yoxdur Dələdə.
İsmi özünə yükdür,
Xan olmayıb hələ də.

O Kəklik əvvəldən də,
Yatmırdı ipə-sapa.
Ara yaman qarışıb,
Nə itirib, nə tapa?

Nə yaman dəyişibdir,
Üzü üzlər görmüşlər.
Keçini dərd üzürdü,
Hanı köhnə gülüşlər?!

Ac Qurd fürsət axtarır,
Nəsə bir şey tapacaq.
Çörəyi küt gedənin,
Kündəsini yapacaq.

Heç özü də bilmirdi,
Keçi indi nə edir.
Sözünü eşidən yox,
Saqqalı əldən gedir.

Hanı onun yanında,
Quyruq bulayan Tula?
Əlinə motal düşüb,
Daha hürümür yala.

Dəyişib bütün heyət,
Bircə günün içində.
Dərdi aşıb-daşırdı,
Boz Keçinin içində.

Ayı pəncə yalayır,
Qurd da qana susamış.
Yenə buynuz göstərir,
Gönü qalın boz Camış.

İndi-indi bilirdi,
Ona gülənlər çoxmuş.
Dəvə ilə kəsdiyi,
Çörəyin duzu yoxmuş.

Boz Keçi nifrət etdi,
Ürəyində təftişə.
Sonra dalıb xəyala,
Getdi yaxın keçmişə.

O, işə gələn günü,
Hər kəs ilə görüşdü.
Göydə uçanlar enib,
Yerdəcə sürünürdü.

Görüş üçün gələnlər,
Əlini sıxıb getdi.
Yaltaqlar düzəlmədi,
Əyilib, çıxıb getdi.

Köksü xınalı Kəklik,
Özünü qoydu naza.
Boz Keçi altdan-altdan,
Baxdı katibə Qaza.

Qənd qabında şəkər yox,
Kəklik dedi, irisdi.
Qoy kefin dəmli olsun,
Olarsa, nəyi pisdi.

Sonra da Tovuz quşu,
Gözə soxdu özünü.
Keçiyə sığal çəkib,
Söylədi xoş sözünü.

Xoruz dedi, siz üçün,
Mən hər səhər banlaram.
Sizdən özgə banlasam,
Qoy olsun banım haram.

Sizə qulluq etməsəm,
Hər kəs qınayar məni.
Eşşəyəm, işim budu,
Evdən işə gətirmək
Mən Eşşəyin borcudu.

Bel bağlama sən Qurda,
Qəlbi kövrək Quzuyam.
Dost dediyin boz Qoçun,
Mən ən kiçik qızıyam.

Buynuzun nə itidir,
Qurban olum boyuna.
Hər gün yeyib-içməyin,
Mən dəvənin boynuna.

İstirahət günləri,
«Camış gölü»nə gəlsən.
Qulluğunda durarıq,
Camış dedi, gələrsən.

Qəti narahat olma,
Bayquşların səsindən.
Səni qoruyarıq biz,
Əqrəbin iynəsindən.

Dana dedi, biz varıq,
Güvənimiz var sizə.
Sizinləyik hər zaman,
Xeyirdə, şərinizdə.

Qaban dedi, kimsədən,
Çəkinmək nəyə lazım?
Sizə gələn xatanın,
Yolunda səngər qazım.

Yazda kisə verərik,
Sənə saunalarda.
Qışda xizək sürərsən,
Dağlar döşündə qarda.

Qatır dedi, Qubaya,
Gedən yolda yorulsan,
Ərəbə tapşırarıq,
Ətəyindən tutarsan.

Avropa «xox» eləsə,
Bil ki, yanında varıq.
Yüz oyundan çıxsan da,
Biz səni qoruyarıq.

Quyruqdan yox, başdan tut,
Əlindən düşər balıq.
Hər şey gəldi-gedərdi,
Seçkilərdə ol ayıq.

Gözlənilməz mitinqdə,
Qəti görünmək olmaz.
Bürünsən də palaza,
Elnən sürünmək olmaz.

Son sözü Keçi bəyə,
Tülkü lələ söylədi.
Ona təzə işində,
Uğurlu yol dilədi.

Bu an qapı açıldı,
Keçi huşdan ayıldı.
Şirin-şəkər xəyalı,
Çox-çox uzaqda qaldı.

Kəfkirini oynadan,
Saat düşdü başına.
Təftişi görən kimi,
Su qatıldı aşına.

Gözlərinin önündə
Ulduzcuqlar qaçırdı.
O, özünə gələndə
Təftiş Seyfi açırdı.